UOT 371.

***Şəbnəm Qabil qızı Nəsibova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TƏHSİL MÜƏSSİSƏLƏRİ İLƏ BAĞLI ƏSASNAMƏLƏRDƏ İDARƏETMƏ FƏALİYYƏTİNİN MƏZMUNUNUN ƏKSİ

***Шабнам Габиль гызы Насибова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ОТРАЖЕНИЕ СОДЕРЖАНИЯ УПРАВЛЕНЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ПОЛОЖЕНИЯХ, СВЯЗАННЫХ С ОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ

***Shabnam Habil Nasibova,***
*Azerbaijan State Pedagogical University*

# THE OPPOSİTE OF REGULATİONS ON THE CONTENT OF THE CONTROL ACTİVİTİES İN SCHOOLS

**Xülasə:** Elmi məqalədə müəllif təhsil müəssisələri ilə bağlı əsasnamələrə istinad edərək məktəbəqədər təhsil müəssisələrinin, ümumtəhsil və ali məktəblərin idarə olunmasının məzmununu geniş şəkildə şərh edərək tədqiqata cəlb etmişdir. Təhsil müəssisələri ilə bağlı əsasnamələrin idarəetmə fəaliyyətinin və təhsilin keyfiyyətinin yüksəldilməsində rolunu açıqlamışdır.

***Açar sözləri:*** *nümunəvi nizamnamə, məktəbəqədər təhsil, ümumtəhsil məktəbləri, ali məktəblər, idarəetmə, fərmanlar, məzmun*

**Резюме:** В представленной научной статье, автор, ссылаясь на положения, связанные с образовательными учреждениями, широко прокомментировал и исследовал содержание управления дошкольных общеобразовательных учреждений, общеобразовательных школ и высших учебных заведений. Автором также была раскрыта роль положений, связанных с образовательными учреждениями, в повышении управленческой деятельности и качества образования.

***Ключевые слова:*** *образцовый устав, дошкольное образование, общеобразовательные школы, высшие учебные заведения, управление, указы, содержание*

**Summary:** In the presented scientific article, the author, referring to the state of affairs, connected with the educational institutions, has broadly written and supervised the drafting of the joint educational and research institutions, the general education school and the higher education institutions. The author also understood the role of the role, connected with the educational institutions, in the management of management and education.

***Key words:*** *The model regulations, pre-school, secondary schools, high schools, management, decrees, content*

Təhsil müəssisələri ilə bağlı əsasnamələr idarəetmə fəaliyyətinin və təhsilin keyfiyyətinin yüksəldilməsində rolu böyükdür. Məsələn, götürək məktəbəqədər təhsil müəssisələrini. Məktəbəqədər təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli fərmanının 1.22-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər kabinetinin 2 oktyabr 2012-ci il tarixli 218 nömrəli qərarı ilə təsdiq olunmuşdur. Tabeçiliyindən asılı olmayaraq, hər bir məktəbəqədər təhsil müəssisəsi həmin Nümunəvi Nizamnamənin tələblərini əsas götürərək fərdi Nizamnaməsini hazırlamalıdır. Fərdi Nizamnamə məktəbəqədər təhsil müəssisəsinin tabe olduğu icra orqanı tərəfindən təsdiq olunur.

Nümunəvi Nizamnamədə məktəbəqədər təhsilin idarə olunması məsələlərinin şərhinə keçməzdən əvvəl qeyd edək ki, Azərbaycan Respublikasında uzun illər məktəbəqədər təhsil müəssisələrinin böyük əksəriyyəti Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeçiliyində fəaliyyət göstərmişdir. Bundan başqa, müəssisələrin nəzdində də məktəbəqədər təhsil müəssisələri olmuşdur. Həmin məktəbəqədər təhsil təhsil müəssisəsi tərkibində fəaliyyət göstərdiyi istehsalat müəssisəsinin tabeçiliyində öz işini davam etdirmişdir. Azərbaycan Respublikası müstəqillik elan etdikdən sonra tabeçilik baxımından məktəbəqədər təhsilin yeni bir forması – özəl uşaq bağçaları yaranmışdır.

Özəl məktəbəqədər təhsil müəssisələri onları yaradan şəxsin sərmayəsi, maliyyələşdirilməsi yolu ilə fəaliyyət göstərir. Digər məktəbəqədər təhsil müəssisələri kimi bu müəssisələr də Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Nümunəvi Nizamnamə əsasında tərtib edilmiş fərdi nizamnamə üzrə fəaliyyət göstərir, Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam, metodik göstərişlərini işlərində rəhbər tuturlar. Lakin Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları və uşaq evləri yerli icra hakimiyyəti orqanlarının tabeliyinə verilmişdir. İndi isə Nümunəvi Nizamnamədə idarəetmə məsələləri ilə bağlı şərh verək.

Həmin məsələ Nümunəvi Nizamnamənin “Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi” adlanan 6-cı bəndində verilir. Bənd 37 maddədən ibarətdir. Məktəbəqədər təhsil müəssisəsinin idarə olunmasında demokratiklik və şəffaflığın gözlənilməsi ən mühüm prinsip kimi təqdim olunur. Demokratiklik və şəffaflığın təmin olunması üçün müəssisədə ümumi yığıncaq, himayədar, pedaqoji, valideynlər, qəyyumlar şuralarının yaradılmasının vacibliyi qeyd edilir. Deməli, məktəbəqədər təhsil müəssisəsinin rəhbəri müəssisəni demokratiklik və şəffaflıq prinsipləri əsasında idarə etmək üçün göstərilən tələbləri nəzərə almalı, uşaq bağçasında ictimai idarəetmə orqanları yaratmalıdır. Bu isə bütövlükdə təhsil sisteminin idarə olunması ilə bağlı ölkə Prezidentinin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” adlı Sərəncamında qarşıya qoyulmuş tələblərdən irəli gələn vəzifədir. Adı çəkilən sənəddə məktəbəqədər təhsil müəssisəsi müdirinin hüquq və vəzifələri göstərilir. Onlardan bəzilərini nümunə kimi aşağıda veririk: Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinə görə cəmiyyət və dövlət qarşısında məsuliyyət; təhsil müəssisəsi üzrə əmrlər, göstərişlər vermək, bütün dövlət və qeyri-dövlət təşkilatlarında etibarnaməsiz fəaliyyət göstərmək, məktəbəqədər təhsil müəssisəsini təmsil etmək, uşaq kontingentini formalaşdırmaq, daxili intizam qaydalarını təsdiq etmək və s.

Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 29.0.15-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və tabeliyindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün ümumtəhsil məktəblərinin fəaliyyətini tənzimləyir. İstər məktəb rəhbəri, istərsə də pedaqoji kollektivin digər üzvləri işlərində bu sənədə istinad edirlər. Hər bir məktəbdə Nümunəvi Nizamnamə əsas götürülməklə məktəbin fərdi nizamnaməsi hazırlanır. Azərbaycan Respublikasının Nazirlər kabinetinin 13 yanvar 2011-ci il tarixli qərarı ilə təsdiq olunmuş Nümunəvi Nizamnamə “Ümumi müddəalar”la başlayır. “Ümumi müddəalar” Nümunəvi Nizamnamənin tabeliyindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün ümumtəhsil məktəblərinin fəaliyyətini tənzimlədiyini, fərdi nizamnamələrin hazırlanmasında əsas olduğunu, dövlət ümumtəhsil məktəblərində təhsilin ödənişsiz əsaslarla həyata keçirildiyini, partiyaların və dini qurumların yaradılmasının yolverilməzliyini və s. göstərən 18 maddədən ibarətdir.

Nümunəvi Nizamnamə 12 bölmədən ibarətdir. Bu bölmələri əhatə edən maddələrin hər biri ümumtəhsil məktəblərinin keyfiyyətli fəaliyyətinin əsasını təşkil edir. Burada göstərilir ki, “ümumtəhsil məktəbi dövlətin tələbinə görə cinsindən, irqindən, dilindən, dinindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən asılı olmayaraq, hər bir vətəndaşın ümumi təhsil almaq imkanını təmin edir. Ümumtəhsil məktəbində təhsil dünyəvi xarakter daşıyır, milli zəminə, mütərəqqi pedaqoji ənənələrə, eləcə də dünya təcrübəsinə əsaslanmaqla, fərdin harmonik inkişafına xidmət edir” (6, s. 326) Nümunə-

vi Nizamnamədə ümumtəhsil məktəblərinin idarə olunması ilə bağlı maddələr üzərində bir qədər ətraflı dayanaq. Bu məsələ Nümunəvi Nizamnamənin 5-ci bölməsində verilir. Bu bölmədə göstərilir ki, "ümumtəhsil məktəbinin idarə olunması aşkarlıq, şəffaflıq və demokratiklik prinsiplərinə əsaslanır. Ali idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən pedaqoji şura hesab olunur. Pedaqoji şuranın əsasnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir" (6, s. 327).

Eləcə də digər ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası Nazirlər kabinetinin 2011-ci il 21 yanvar tarixli qərarı ilə təsdiq edilmişdir. Bu Nümunəvi Nizamnamə hər bir ali təhsil müəssisəsi üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur. Ali təhsil müəssisəsinin nizamnaməsi təhsil müəssisəsinin elmi şurası tərəfindən qəbul olunur və təsisçisi (Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi nizamnamələr istisna olunmaqla) tərəfindən təsdiq edilir. Bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəyi əsasında təsisçilər tərəfindən təsdiq edilir.

Nümunəvi Nizamnamədə göstərilir ki, "Təhsil qanunvericiliyinə əsasən ali təhsil müəssisəsinin universitetlər, akademiyalar, konservatoriyalar, institutlar və s. növləri vardır. "(5, s. 548)

Nümunəvi Nizamnamə "Ümumi müddəalar" adlanan birinci bölməsi 34 bənddən ibarətdir. 2-ci bölməsi 5 bənddən, 3-cü bölməsi 10 bənddən, 4-cü bölməsi 9 bənddən, 5-ci bölməsi 8 bənddən, 6-cı bölməsi 8 bənddən, 7-ci bölməsi isə 7 bənddən ibarətdir.

Ali təhsil müəssisələrinin idarə olunması məsələləri 5-ci bölmədə göstərilmişdir. 5-ci bölmənin birinci bəndində yazılır: "Ali təhsil müəssisəsinin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, elmi-metodiki, pedaqoji, təhsilalanlar, qəyyumlar şuraları və s.) yaradıla bilər. Həmin qurumların yaradılması qaydası və səlahiyyətləri ali təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyənləşdirilir" (5, s. 556)

**Problemin aktuallığı:** Təhsil müəssisələrində demokratikliyi və şəffaflığı təmin etmək və düzgün idarəetməni həyata keçirməkdən ötrü əsasnamələrə istinad etmək və onun məzmununu açmaq müasir dövrdə böyük aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi:** Elmi məqalədə əsasnamələrə istinad edilərək ayrı-ayrı təhsil müəssisələrində idarəetmə fəaliyyətinin məzmunu öyrənilmişdir.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan elmi –nəzəri fikirlərdən idarəetmə ilə bağlı dərsliklərin hazırlanmasında və eləcə də gələcək menecmentlərin fəaliyyətlərinin nizamlanmasında böyük üstünlüklərə malikdir.

**Ədəbiyyat:**

1. Abbasov O. Təhsilin idarə olunması. Bakı: "MM-S" müəssisəsi, 2016.
2. Əfəndi O. Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2010.
3. Rüstəmov F.A., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007.
4. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
5. Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I c. Bakı: Şərq-Qərb, 2012.
6. Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. II c. Bakı: Şərq-Qərb, 2012.
7. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.

**E-mail:** sabnam90@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* K.R. Quliyeva
*ped.ü.fəls.dok., dos.* S. Orucova
**Redaksiyaya daxil olub:** 12.12.2018.